# RESPUBLİKADA ƏRZAQ TƏMİNATININ YERLİ İSTEHSAL HESABINA ÖDƏNİLMƏSİ SƏVİYYƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Son illərdə Azərbaycanın sürətli inkişaf dinamikası aqrar sektorda əldə olunan uğurların timsalında daha qabarıq şəkildə nəzərə çarpır. Bütövlükdə, davamlı və hərtərəfli dövlət dəstəyi sayəsində respublikamızda kənd təsərrüfatında əhəmiyyətli artıma nail olunub.

Ərzaq təhlükəsizliyi dövlətin iqtisadi inkişaf konsepsiyasının reallaşdırılmasının mühüm istiqamətlərindən biri olmaqla yanaşı, kənd təsərrüfatı məhsulları istehsalının intensiv inkişafını özündə birləşdirir və ərzaq məhsullarının sərbəst təminatına imkan verir. Dövlətin iqtisadi təhlükəsizliyinin mühüm tərkib hissələrindən biri olmaqla bərabər qloballaşma şəraitində dövlətin iqtisadi-siyasi qüdrətini özündə əks etdirir. Dörd əsas amilin ərzaq təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyəti vardır. Bu amillərə istehsal imkanlarının mövcudluğu, istehsalın həyata keçirilməsi, məhsulun keyfiyyətinin və əhalinin alıcılıq qabiliyyətinin təmin edilməsi aiddir. Dövlət ehtiyyat fondlarının yerli istehsal hesabına yaradılmasının ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsində xüsusi iqtisadi əhəmiyyəti vardır. Odur ki, əsas hədəf olmaqla ehtiyyat ərzaq fondunun yaradılmasının və ondan istifadə olunması poblemlərinin öz həllini tapması, yerli istehsalın artmasında mühüm rol oynayır.

Araşdırmalar göstərir ki, yerli istehsalın artırılmasında əsas problemlərdən biri, dövlətin iqtisadi maraqlarının qorunması və ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün  daxili bazarın xarici təsirlərdən qorunmasıdır. Kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasının və onun tələb olunan səviyyəyə çatdırılmasında sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi və gəlirlərin artırılması yerli məhsulların istehsalının artırılması ilə sıx bağlıdır. Ərzaq təhlükəsizliyinə və dövlətin iqtisadi maraqlarına və siyasi suverenliyinə mənfi təsir göstərən faktorlardan ən əsası ölkə əhalisinin ərzaq təminatında yaranan problemlərdir. Belə ki, ərzaq təminatının yaxşılaşdırılması əhalinin yaşayış səviyyəsini müəyyənləşdirən əsas göstəricilərdən biridir.

Məhz bu baxımdan, dövlətin aqrar siyasətinin uğurla həyata keçirilməsi, kənd təsərrüfatı istehsalının artırılması  və onun keyfiyyət göstəricilərinin yüksəldilməsi bazar münasibətləri şəraitindənəhəmiyyətli dərəcədə asılıdır. Ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və kənd təsərrüfatı məhsulları istehsalçılarının müasir tələblərə cavab verən maddi-texniki resurslarla təmin edilməsidir. Qeyd edək ki, regionların, o cümlədən rayonlar üzrə torpaqların tərkibini, xüsusiyyətlərini, məhsuldarlığını və sahələr üzrə ixtisaslaşmasının öyrənilməsində resurs təminatının öz həllini düzgün tapması mühüm əhəmiyyət kəsb edir. Bundan başqa ərzaq təhlükəsiliyinin resurs təminatında əmək resurslarından o cümlədən, işçi qüvəsindən səmərəli istifadə edilməsi də mühüm amillərdən biri hesab olunur.

Aparılan araşdırmalar göstərir ki, ərzaq təhlükəsizliyinin yerli istehsal hesabına təmin edilməsində ən başlıca amil istehsalın intensivləşdirilməsidir.

“2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nda göstərilir ki, etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlığının başlıca şərtidir. Ölkə əhalisinin etibarlı ərzaq təminatının formalaşdırılmasına təsir edən əsas amillərdən biri də ölkədə yetərli ərzaq ehtiyatlarının yaradılması ilə yanaşı rəqabətədavamlı istehsala nail olmaqdır. Bu baxımdan bazar münasibətləri şəraitində ölkə əhalisinin ərzaq təhlükəsizliyinin yetərli olaraq təmin edilməsi üçün dövlətin ərzaq ehtiyatlarının formalaşdırılmasının mümkün olan bütün səmərəli forma və istiqamətlərinin müəyyənləşdirilməsi və həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.Dövlətin iqtisadi gücü regionların inkişaf səviyyəsi əsasında qiymətləndirilir.

Daxili ərzaq bazarının təkmilləşdirilməsi, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi və ölkə əhalisinin etibarlı ərzaq təminatına nail olunması ilə birbaşa bağlıdır.Aqrar məhsullarla ölkə əhalisinin daimi təminatini yaratmaq üçün aqrar infrastrukturun yaradılması faraş məhsulla təminatda mövsümiliyin aradan qaldirılmasına və nəticədə istehsalın iqtisadi səmərəliliyin yüksəlməsinə imkan vermişdir.

Bazar mexanizminin aqrar sahədə istehsalın artım tempinə uyğun olaraq təşkilinin indiyədək bir çox ölkələrin timsalında isbat olunmuşdur. Bu baxımdan aparılan tədqiqat göstərilən istiqamətlərdə mövcud olan problemlərin araşdırılmasına yönəlmişdir.

Tədqiqatın əsas məqsədi ərzaq təhlükəsizliyinin təmin edilməsində və əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində xüsusi rolu olan resurs təminatının araşdırılması, vacib amillərin müəyyən aspektlərinin öyrənilməsidir. Tədqiqat aparıldıqdan sonra alınan nəticələrə uyğun olaraq qarşıya çıxan mövcud problemlərin həllinə dair təklif və tövsiyyələr hazırlamaqdan ibarətdir.İlk növbədə tədqiqat aparmaq üçün respublikamızda ərzaq məhsulları istehsalının mövcud durumunu və prespektiv inkişaf yollarını aqrar sahədə ərzaq təminatının formalaşdırılması, ərzaq bazarının problemlərinin öyrənilməsi istiqamətində araşdırmağa çalışmışıq. Ərzaq təhlükəsizliyinin təmin olunmasına təsir edən bir sıra faktorlar var. Bunlardan biri də istehsal prosesidir. Aparılan araşdırma zamanı respublikada əhalinin ərzaq təminatının yerli istehsal hesabına ödənilməsi səviyyəsinin qiymətləndirmişik.Əsasən aşağıda qeyd olunan istiqamətlərdə tədqiqatların aparılması nəzərdə tutulmuşdur:

- ərzaq təhlükəsizliyinin təmin olunmasında yerli istehsalın rolunun artırılması, rəqabətədavamlı yerli istehsalın təşkil olunması, ərzaq ehtiyatının artırılmasının zəruriliyi;
- ərzaq təhlükəsizliyinintəminatına təsir edən əsas amillər, əsas ərzaq məhsullari istehsali ilə özünü təminetmə səviyyəsi;
- ölkə üzrə müxtəlif ərzaq məhsullarını ehtiyatının mövcud vəziyyətinin qiymətləndirilməsi;
- səmərəli ərzaq təhlükəsizliyinin optimal təminatınn həcminin təşkili ilə bağlı əməli təkliflərin hazırlanması.

Aparılanelmi araşdırmanın metodoloji əsaslarını Azərbaycan Respublikasının qanunları, respublika hökümətinin qəbul etdiyi normativ-hüquqi sənədlər, Dövlət Statistika Komitəsinin məlumatları, müxtəlif monitorinq nəticələri, dövlət

proqramları, respublika və xarici ölkələrin alimlərinin aqrar sahədə apardıqları araşdırmaları və əsərləri təşkil edir.

Bildiyimiz kimi məhsul istehsalının həcminin artırılması və onun keyfiyyətinin yaxşılaşdırılması hesabına əhalinin getdikcə daha da artan təlabatlarının hərtərəfli surətdə ödənilməsi kənd təsərrüfatının intensivləşdirilməsinin başlıca məqsədi olmuşdur.Müasir iqtisadi şəraitdə respublikanın aqrar bazarında əmtəənin istehsalçıdan istehlakçıya qədər olan sxemiaşağıda öz əksini tapmışdır:




Araşdılmalar göstərir ki, respublikanın aqrar bölməsində müxtəlif kanallarla məhsul satışının quruluşunda bəzi dəyişikliklər baş vermişdir. Məhsulların fiziki şəxslər vasitəsilə (bura xüsusən birbaşa bazarlarda və firma mağazaları vasitəsilə satışı daxildir) satışı son illər xeyli inkişaf etmişdir.

Ölkədə müasir iqtisadi şəraitdə kənd təsərrüfatı məhsullarının aqrobiznes sistemində vasitəçi kommersiya qurumlarına satışı geniş şəkildə yayılmamış və bu əsasən bir neçə səbəblə əlaqədardır:

1) Hazırkı dövrdə buğda, ət və süd məhsullarının dövlət üçün strateji əhəmiyyət kəsb etməsi və ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə təsərrüfatlarda istehsal olunan bu məhsulların əksəriyyətinin dövlət ehtiyacları üçün realizə olunmaması;

2) Bazar qurumları vasitəsilə sərbəst şəkildə satıla bilən məhsulların (ailə və kəndli-fermer təsərrüfatlarının istehsal etdikləri kartof, tərəvəz, sud və s. məhsullar) xərc tutumlu, tezxarabolması, satışının yüksək gəlir gətirə bilməməsi, əlavə emal, yüksək daşınma xərcləri və s. tələb etməsi ilə əlaqədardır.

Təsərrüfatların daxili və xarici bazarlarda mövqelərinin möhkəmləndirilməsi ilə bağlı həyata keçirilən kompleks tədbirlər sistemi işlənməlidir. Kompleks tədbirlər sistemi dedikdə rəqabət qabiliyyətinin yüksəldilməsi nəzərdə tutulur. Rəqabət qabiliyyətinin yüksəldilməsi konkret məhsul üzrə çəkilən xərclərin aşağı salınması və onun keyfiyyətinin yüksəldilməsi prosesini əhatə edir.

Aparılan tədqiqatların və toplanmış təcrübələrin təhlili göstərir ki, kənd təsərrüfatının hansı ərazidə inkişaf etməsindən asılı olmayaraq onun başlıca istehsal vasitəsi torpaqdır. Torpaq kənd təsərrüfatı məhsullarının əsas istehsal vasitəsi olmaqla bərabər torpaq mülkiyyətçilərinin başlıca sərvətidir. Kənd təsərrüfatı məhsulları istehsalının həcmi, müxtəlif növ təsərrüfatların inkişaf səviyyəsi torpaqdan, onun münbitliyindən necə istifadə edilməsindən asılıdır. Buna görədə torpaqdan düzgün istifadə edilməsi kənd təsərrüfatı məhsulları istehsalçılarının qarşısında duran əsas vəzifədir. Ölkəmiz kənd təsərrüfatı bitkilərindən yüksək məhsulverə bilən böyük və münbit torpaq sahələrinə malikdir.Kənd təsərrüfatının davamlı intensivləşdirilməsinin mühüm yollarından və yaxud şərtlərindən biri sözügedən sahəyə kapital qoyuluşlarının artırılmasıdır. Bu sahəyə lazımi səviyyədə kapital qoyuluşları olmadan kənd təsərrüfatı məhsullarının istehsalının sənaye əsaslarına keçirilməsi və əhalinin ərzaq məhsullarına, sənayenin isə kənd təsərrüfatı xammalına getdikcə artan tələbatını ödəmək qeyri mümkündür.

Ərzaq balanslarında kənd təsərrüfatı məhsullarının istehsalına dair məlumatlar bütün istehsalçıların məlumatlarını (dövlət kənd təsərrüfatı müəssisə və təşkilatları, kollektiv-birgə təsərrüfatlar, açıq və qapalı səhmdar cəmiyyətləri, məhdud və əlavə məsuliyyətli təsərrüfat cəmiyyətləri, kənd təsərrüfatı istehsal kooperativləri, sair kənd təsərrüfatı müəssisə və təşkilatları, kəndli sahibkarlar, ailə kəndli təsərrüfatları, ev təsərrüfatları tərəfindən istehsal edilən məhsulların həcminə dair məlumatları) tam əhatə etməlidir.

Kənd təsərrüfatı məhsulları (ət, süd, yumurta, dənli və dənli paxlalılar, tərəvəz və meyvə) üzrə “istehsal” göstəricisini hesablayarkən, bütün təsərrüfat kateqoriyaları üzrə bitkiçilik və heyvandarlıq məhsulları istehsalına dair məlumatlar təqvim ili üçün hesablanır. Dənli və dənli paxlalılar üzrə məlumatlar təmizlənmiş çəkiyə görə, ət kəsilmiş çəkiyə görə, süd istehsalına dair məlumatlar bazis yağlılığına görə hesablanır (kənd təsərrüfatı istehsalçıları üzrə süd istehsalı

fiziki çəkidə, kənd təsərrüfatı istehsalçıları, emal müəssisələri tərəfindən istehsal edilən süd məhsulları isə bazis yağlılıqda südə hesablanır).

Azərbaycanda kənd təsərrüfatı istehsalçıları əsasən öz məhsullarını və bəzi hallarda isə kənardan alınmış kənd təsərrüfatı məhsullarının emalı ilə də məşğul olurlar.

Beləliklə, "istehsal edilmiş məhsul" anlayışı burada iki mənada işlədilir: birinci halda kənd təsərrüfatı istehsalçıları üzrə kənd təsərrüfatı məhsulu istehsalı; ikinci halda isə emal müəssisələri, kənd təsərrüfatı istehsalçıları və ev təsərrüfatlarında kənd təsərrüfatı məhsullarının emalı və təkrar emalından əldə edilən ərzaq məhsullarının istehsalı nəzərdə tutulur.

Bunun üçün Azərbaycanın bitkiçilik və heyvandarlıq məhsulları üzrə ayrı-ayrılıqda ərzaq balanslarına  nəzər salaq. Hal-hazırda respublikamızda dövlət ərzaq ehtiyatlarından bəhs etdikdə yalniz Dövlət Taxıl Fondu haqqında danışmaq mümkündür. Əslində isə istehlak səbətinin əsasını təşkil edən bir çox məhsulların ehtiyatı yaradılmalı və bunun vasıtəsilə ərzaq bazarı süni qiymət artımından qoruna bilər.

Azərbaycan Respublikasında kənd təsərrüfatının ayrı-ayrı bitkiçilik məhsulları üzrəgöctəriciləri diaqramlarda öz əksini tapmışdır.




**Şəkil 1.  Müxtəlif illərdədənli taxıl  məhsulları üzrə ərzaq balansları (min ton)**

Azərbaycan Respublikasında illər üzrə ərzaq balanslarına nəzər salsaq görərik ki, dənli taxıl cəmi idxalda 2003-cü ildə 876,8 min ton olmuşdursada,

2013-cü ildə isə bu göstərici 734,7min ton artaraq, 1611,5 min tona çatmışdır. 2015-ci ildə isə əvvəlki ilə nisbətən azalaraq, 1592,2 min ton olmuşdur. Taxıl balansında 2013-ci ildə ilin əvvəlinə qalıq 1414,3min ton və ilin sonuna qalıq isə 1624 min ton olmaqla 209,7 min ton artıq olmuşdur. 2015-ci ildə isə ilin əvvəlinə qalıq 1263.8 min ton, ilin sonuna qalıq isə 1388.1 min ton olmuşdur.




**Şəkil 2. Müxtəlif illərdə dənli-paxlalı bitkilər üzrə ərzaq balansları(min ton)**

Dənli-paxlalı bitkilər üzrə isə dənlilərdən fərqli olaraq, ilin əvvəlinə qalıq 2003-cü ildə 5,5 min ton, 2008-ci ildə 6,8, 2013-cü ildə 7,5 min ton, 2015-ci ildə isə 6,9 min ton olmuşdur. Dənli-paxlalı bitkilər üzrə istehsal 2003-cü ildə 17,4, 2015-ci ildə isə 24,3 min ton olmuşdur. Dinamikadan aydın olur ki, keçən müddət ərzində istehsal istiqamətində də artım müşahidə olunur.

İdxala nəzərən 2003-cü ildə 6,2, 2015-ci ildə isə 10.8 min ton olmuşdur. Baxmayaraq ki, istehsal artmış amma idxalda da artım müşahidə olunur. Bu da onu qeyd etməyə əsas verir ki, əhalinin tələbatı tam ödənilmir. Bu baxımdanistehsalın artırılması üçün bu sahədə əkin sahələrinin daha da artırılması vacibdir.




**Şəkil 3. Müxtəlif illərdəkartof istehsalı üzrə ərzaq balansları, (min ton)**

Bu vəziyyət kartof üzrə 2015-ci ildə (541,6-534.3) 66 min ton çox, tərəvəz bostan üzrə (179,5-189,2) 97 min ton az, meyvə üzrə isə (40,6-46,6) demək olar ki, nəzərə alınmır.

Taxılda ixrac isə 2003-cü ildə 45 min ton olmuşdur. 2015-ci ildə isə ixrac yoxdur. Kartofun idxalı isə 2003-cü ildə 78,6 min ton olmuşdur, 2015- ci ildə isə 139,2 min ton olmuşdur. Kartofun ixracına nəzər salsaq görərik ki, 2003- cü ildə 12,4 min ton, 2015-ci ildə isə 36,7 min ton olmuşdur. Bu da 2003-cü illə müqayisədə 24,3 min ton artım deməkdir.




**Şəkil 4. Müxtəlif illərdə tərəvəz və bostan bitkiləri üzrə ərzaq balansları (min ton)**

Tərəvəz və bostan məhsullarının idxalı 2003-cü ildə 29,1min ton, 2008-ci ildə 26,8 min ton, 2013-cü ildə 37,6 min ton və nəhayət 2015-ci ildə isə 41,9 min ton olmuşdur. Dinamikadan göründüyü kimi artım müşahidə olunur. 2003-cü ildə

2015-ci illə müqayisədə 12,8 min ton  az olduğu müşahidə olunur. İxrac isə 2015-ci illə müqayisədə 71,4 min ton aşagıdır.




**Şəkil 5.  Müxtəlif illərdə meyvə və giləmeyvə  üzrə ərzaq balansları (min ton)**

Meyvə və giləmeyvə məhsullarının göstəricilərinə əsasən qeyd etmək olar ki, 2003-cü ildə idxal 14,8 min ton, 2015-ci ildə isə 74,7 min ton olmuşdur. Bu da qeyd etməyə əsas verir ki əvvəlki ilə nəzərən 59,9 min ton artıqdır.

İxraca gəldikdə isə 2003-cü ildə 129,2 min ton, 2008-ci ildə 303,1 min ton, 2013-cü idə 188,3 min ton, 2015-ci ildə isə 182 min ton təşkil etmişdir. Verilənlərə görə 2008-ci ildə ən çox ixrac müşahidə olunmuşdur. Ümumiyyətlə isə əvvəlki illərə nisbətən artım müşahidə olunur.

Qrafik məlumatlarından göründüyü kimi, bostan məhsulları istisna olmaqla qalan məhsullar üzrə yaradılmış məhsul ehtiyyatlarının tərkibində həmin məhsulların idxal olunan həcminin payı artmaqda davam etmişdir. Hazırda Azərbaycanın ərzaq bazarının taxıl və taxıl məhsulları seqmenti beynəlxalq bazarlardan daha çox asılıdır.   Göründüyü kimi son beş il ərzində dənli və dənli paxlalıların yaradılmış ehtiyyatlarının təqribən 30% - i idxalın hesabına olmuşdur. Bitkiçilik məhsullarından dənli və dənlilərin ölkə üzrə istehlakında idxalın payı daha böyükdür. Bu, onunla əlaqədardır ki, Azərbaycanın idxal etdiyi taxılın demək olar ki, hamısı ərzaq təyinatlıdır və birbaşa əhalinin istehlakına gedir

Son illərdə Azərbaycanın regionlarında aqrar sektorda ərzaq məhsulları istehsalının artım dinamikası heyvandarlıqda daha qabarıq şəkildə nəzərə çarpır.Ötən il ölkə əhalisinin heyvandarlıq məhsulları ilə özünütəminat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlib.

**Cədvəl 2**

**Azərbaycan Respublikasında illər üzrə ərzaq balansları,( heyvandarlıq məhsulları üzrə, min tonla)**

| Məhsullar | Illər | Ilin əvvəlinə qalıq | Istehsal | idxal | Ehtiyatların cəmi | Inkubasiya üçün | Mal-qara vəquş yemi üçün | Sənaye ehtiyaclarına | ərzaq üçün ishlaknaturada | ixrac | Itkilər | Ilin sonuna Qalıq |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Cəmi:** **ət və ət məhsulları** | 2003 | 6,7 | 134,4 | 29,5 | 170,6 | | | | 162,4 | | 1,3 | 6,9 |
| | 2008 | 9,1 | 175,6 | 29,5 | 214,1 | | | 0,1 | 200,4 | 1,6 | 3,4 | 8,6 |
| | 2013 | 11,5 | 297,9 | 27,6 | 336,9 | | | 16,8 | 321,6 | 1,6 | 2,2 | 11,6 |
| | 2015 | 9,3 | 298,6 | 17,6 | 325,5 | - | - | 7,2 | 319,1 | 0,8 | 1,4 | 4,1 |
| **Süd və süd məhsulları** | 2003 | 22,0 | 1167,8 | 227,7 | 1412,5 | | | 24,1 | 1359,1 | 0,1 | 7,2 | 22,0 |
| | 2008 | 202,3 | 1381,6 | 182,8 | 1766,7 | | 35,3 | 1702,1 | 1525,9 | 0,7 | 37,6 | 167,2 |
| | 2013 | 154,4 | 1820,5 | 573,6 | 2548,5 | | 48,00 | 1871,2 | 2279,9 | 6,1 | 54,1 | 160,5 |
| | 2015 | 164,8 | 1924,5 | 366,0 | 2455,4 | - | 46,2 | 1951,6 | 2345,7 | 6,2 | 35,0 | 22,1 |
| **Yumurta** **(min ədədlə)** | 2003 | 2700 | 681900 | 6800 | 691400 | 41700 | | | 624800 | 21100 | 700 | 3100 |
| | 2008 | 14337 | 1160530 | 16834 | 1191701 | 74073 | 18918 | | 1060618 | 4325 | 7521 | 26246 |
| | 2013 | 24901 | 1401473 | 473354 | 1473728 | 91603 | 23395 | | 1322713 | 605 | 7310 | 28102 |
| | 2015 | 30421 | 1552916 | 5333 | 1588670 | 88748 | 23220 | - | 1462876 | - | 6409 | 7417 |
| **Balıq və balıq məhsulları** | 2003 | 0,1 | 23,3 | 3,9 | 27,3 | | | | 23,5 | 3,7 | | 0,1 |
| | 2008 | 0,6 | 20,9 | 13,1 | 34,6 | | | 0,3 | 33,0 | 0,5 | 0,09 | 0,7 |
| | 2013 | 2,2 | 51,0 | 20,2 | 73,3 | | | 0,9 | 69,6 | 0,03 | 0,16 | 2,7 |
| | 2015 | 2.7 | 51.2 | 14.8 | 68.8 | - | - | 0.8 | 67.1 | - | 0.1 | 0.6 |

Aparılan araşdırmalardan məlum olmuşdur ki, Azərbaycan Respublikasında ət istehsalı 2003-cü ildə 134,4 min ton, 2015-ci ildə isə bu rəqəm artaraq 298,6 min ton təşkil edir. Bu da əvvəlki ildən fərqlənərək 164,2 min ton artıq olduğunu

göstərir. Ət məhsullarında isə ilin əvvəlinə qalıq göstəricisi 2015-ci ildə əvvəlki ildən az fərqlənir, süddə isə bu göstərici 2003-cü ildə 22,1, 2015-ci ildə isə 164,8 min ton təşkil edir. İllər arasındakı fərq isə 142,7 min ton olduğu müşahidə edilir.

Yumurta üzrə isə ilkin göstərici 2700, 2015-ci ildə isə artaraq, 3100 min ədəd olduğu müşahidə olunur. Bu da əvvəlki ildən 400 min ədəd artıq olduğunu göstərir. Digər tərəfdən 2003-cü ildə ət və ət məhsullarında idxalın çəkisi 29,5 min ton, 2015-ci ildə isə 17,6 min ton olmuşdur. Bu da əvvəlki ilə nəzərən müqayisədə 11,9 min ton aşagi düşdüyünü göstərir.

Dinamikadan 2015-cü ildə 0,8 min ton ət məhsulları ixrac edildiyi müşahidə olunur.

Süd və süd məhsullarının idxalı isə 2003-cü ildə 227,7 min ton, 2015-ci ildə isə artaraq 366,0 min ton olmuşdur. Bu da 2003-cü illə müqayisədə 138,3 min ton artım olduğunu göstərir.

2003-cü ildə yumurta idxalı 6800 min ədəd, 2015-ci ildə isə bu rəqəm azalaraq 5333 min ədəd təşkil edir. Digər tərəfdən qeyd etmək olar ki, 2003-cü ildən fərqli olaraq 2015-ci ildə yumurta ixrac olunmamışdır. Baliq və balıq məhsullarına gəldikdə isə 2003-cü ildə 3,9 min ton, 2015-ci ildə isə 14,8 min ton idxal olunduğu müşahidə olunur. Balıq məhsullarında ixracın cəkisi 2003-cü illə müqayisədə 2015-ci ildə müşahidə edilməmişdir.

İdxal və ixracın həcmi dedikdə, respublikada yaşayan şəxslər və ya fəaliyyət göstərən müəssisələr tərəfindən həyata keçirilən əqdlərin nəticəsində ölkəyə daxil olan və ölkədən çıxarılan məhsulların miqdarı nəzərdə tutulur.

Beynəlxalq mütəxəssislərin rəyinə görə, Azərbaycan respublikasında ərzaq təhlükəsizliyi göstəriciləri əvvəlki illərlə müqayisədə xeyli yaxşılaşıb və orta səviyyələrdə qiymətləndirilir.

Ərzaq ehtiyatlarının yaradılmasının, ərzaq təhlükəsizliyinin təmin olunmasının tərkib hissəsi olmasını nəzərdən qaçırmaq olmaz. Burada yaradılan ərzaq ehtiyatlarının mənbəyi də onəmli əhəmiyyət daşımaqdadır. Xüsusən ərzaq istehsalında xarici ölkələrdən asılılığı aradan qaldırmaq, yerli istehsal hesabına

əhalini ərzağa olan tələbatının maksimum ödənilməsi imkanlarının yaradılması lazımdır.

İllik istehlak həcmini müəyyənləşdirərək istehsal gücü ilə idxal arasındakı nisbəti və rəqabəti müəyyənləşdirmək mümkündür. Əhalinin ərzaq məhsulları ilə təmin olunma səviyyəsini beynəlxalq bir standartda müəyyənləşdirmək qeyri mümkündür. Burada toplumun yerləşdiyi coğrafi mövqeden tutmuş, milli mentalitetinə qədər bütün amillər nəzərə alınmalıdır. Respublikamızda özunutəminetmə səviyyəsini nəzərdən keçirək.

Əlbəttə, ərzaq məhsullarının istehsalının ilbəil artması fonunda idxal həcmlərinin də artmasını qismən əhalinin istehlak səviyyəsinin artması ilə izah etmək olar. Lakin buna baxmayaraq idxal həcmlərinin azalması və paralel olaraq ixracın artırılması prosesi ölkə iqtisadiyyatının qarşısında duran əsas vəzifələrdən biri hesab olunmalıdır.

Özünütəminetmə ***($Ö_{ts}$ )*** və xarici ticarətdən (idxaldan) asılılıq səviyyəsi ***($İ_{as}$)*** balans məlumatları əsasında hesablanan göstəricilərdir. Onların hesablanması zamanı BMT-nin Kənd Təsərrüfatı və Ərzaq Təşkilatı (FAO) tərəfindən tövsiyyə olunmuş metodologiyadan istifadə edilir.

Özünütəminetmə səviyyəsini hesablamaq üçün istehsalın həcmini istehsal və idxal olunan məhsulların cəmindən ixrac olunan məhsulların cəmini çıxdıqdan sonra alınan məlumata bölmək üsulu ilə hesablanır:

$$Ö_{ts} = istehsal / (istehsal + idxal - ixrac) * 100.$$

Göstəricilərin dinamikası şəkil 6-da əks olunmuşdur.




| | Dənlilərin cəmi | buğda | arpa | qarğıdalı | vələmir | Sair növ dənlilər | Paxlalılar | Kartof | Bütün növ tərəvəz | Bostan məhsulları | Meyvə və giləmeyvə | Üzüm |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2010 | 56.3 | 48.9 | 87.7 | 64.5 | 80.6 | 1 | 65.8 | 100.5 | 97.6 | 100 | 107.9 | 90.4 |
| 2011 | 64.8 | 57.7 | 93.7 | 68 | 82.8 | 4 | 70.4 | 101.6 | 95.7 | 100.2 | 116.8 | 89.9 |
| 2012 | 64.3 | 56.8 | 95.1 | 67.3 | 84.4 | 8.7 | 71.6 | 98.2 | 98.9 | 100.1 | 125.7 | 94.3 |
| 2013 | 63.9 | 55.9 | 97.8 | 60 | 89.3 | 2.3 | 76.6 | 97.6 | 102.3 | 100 | 121.8 | 94.8 |
| 2014 | 60.6 | 54.1 | 84.6 | 56.7 | 62.2 | 1.1 | 76.5 | 89.7 | 103.4 | 100.4 | 120.1 | 97.9 |
| 2015 | 64.5 | 54.8 | 95.1 | 54.1 | 93.1 | 6.3 | 69.3 | 89.1 | 103.4 | 100 | 113.7 | 93.1 |

**Şəkil 6. Bitkiçilik məhsulları ilə özünütəminetmə səviyyəsi (%-lə)**

Təhlil olunan illər ərzində əsas növ bitkiçilik məhsulları ilə özünütəminat və idxaldan asılılıq səviyyəsində də müəyyən dəyişikliklər müşahidə olunmuşdur

Şəkildən göründüyü kimi müxtəlif illər ərzində hər bir məhsula uyğun göstəricilər verilmişdir. Dənli bitkilərə görə təminetmə səviyyəsi 2010-cu ildə 56,5%, 2015-ci ildə isə 64,5% olmuşdur bu da 8% artım deməkdir. Paxlalılar üzrə isə 2010-cu ildə 65, 8%, 2015-ci ildə isə bu göstərici 69,3% təşkil edir. Kartof üzrə dinamikaya nəzərən qeyd etmək olar ki, 2010-cu ildə 100,5%, 2015-ci ildə isə 89,1% olmuşdur. Bu da əvvəlki ilə nəzərən 11,4% az olmuşdur. Bütün növ tərəvəz məhsullarında isə özünü təminetmə səviyyəsi 2010-cu ildə 97,6%, 2015-ci ildə isə 103,4% olmuşdur.Burada da az da olsa artım müşahidə edilir. Meyvə və giləmeyvələr üzrə isə 2010-cu ildə 107.9%, 2015-ci ildə 113,7% müşahidə olunur. Bura da da əvvəlki ilə nəzərən artım müşahidə olunur. Üzüm istehsalına nəzərən qeyd etmək olar ki, burada da özünütəminetmə səviyyəsiində artım müşahidə olunur.

Beləliklə, sonda qeyd etmək olar ki bütün bitkiçilik məhsulları üzrə artım müşahidə olunmuşdur. Digər tərəfdən idxaldan asılılıq səviyyəsinin müəyyənləşdirmək lazım gəlir.

Ölkəmizdə idxal və ixrac prosesinə nəzər saldıqda ixrac həcmlərinin artım templərinin idxala nisbətən daha yüksək olduğunu görürük. Bu isə yaxın illərdə idxal-ixrac balansında əsaslı müsbət dəyişikliklərin olmasına imkan verəcəkdir.

Xarici ticarətdən (idxaldan) asılılıq səviyyəsi (əmsalı) idxalın həcminin istehsal və idxalın cəmindən ixrasın həcmini çıxdıqdan sonra alınan mütləq kəmiyyətə nisbəti ilə hesablanır:

***İ**$_{as}$ **= idxal / (istehsal + idxal - ixrac) * 100.***

Ölkədaxili istehlak istehsal ehtiyaclarına sərf edilən məhsullar, ərzaq məhsullarının istehsalı üçün istifadə edilən məhsullar, əhalinin şəxsi istehlakı (istehlak fondu), məhsulların itkiləri, qeyri-ərzaq məhsullarının istehsalına sərf edilən bütün məhsullarıözündə əks etdirir.

Şəkil 7-də müxtəlif illərə görə hər bir kənd təsərrüfatı məhsulları üzrə idxaldan asılılıq səviyyəsinin dinamikası verilmişdir. Belə ki, dənlilər üzrə 2010-cu ildən 2015-ci ilə qədər təqribən 10% azalma müşahidə olunur. Paxlalı bitki məhsulları üzrə idxaldan asılılıq səviyyəsində də azalma var. Kartof üzrə isə digər məhsullardan fərqli olaraq artım müşahidə olunur. 2010-cu ildə 6,9%, 2015-ci ildə isə 14,8% olmuşdur. Bu da 8% artım deməkdir. Bütün növ tərəvəz üzrə isə kartofdan fərqli olaraq digər məhsullarda olduğu kimi azalma müşahidə olunur. Meyvə və giləmeyvələr üzrə də azalma müşahidə olunur. 2010-cu ildə 22,4% olmuşdursa, 2015-ci ildə isə bu göstərici azalaraq 9,6 % olmuşdur.

Statistik məlumatların müqayisəsi göstərir ki, ölkəmizdə kənd təsərrüfatı mənşəli ərzaq məhsulları istehsalının artması ərzaq təhlükəsizliyinin riskini azaltsada əsas ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi hələ ki, tam mümkün olmamışdır. Cədvəl məlumatlarından göründüyü kimi, dənli və dənli paxlalılar üzrə idxal olunan əmtəələrin bütövlükdə ölkə əhalisi tərəfindən istehlakında xüsusi çəkisi yol verilə bilən həddən yuxarı səviyyədədir. Aparılan tədqiqatlar zamanı məlum olmuşdur ki, bitki yağları, süd və süd məhsulları üzrə də həmin göstərici kifayət qədər yüksəkdir.




| | Dənlilərin cəmi | buğda | arpa | qarğıdalı | vələmir | Sair növ dənlilər | Paxlalılar | Kartof | Bütün növ tərəvəz |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2010 | 43.5 | 51.1 | 12.3 | 35.5 | 19.4 | 103.6 | 34.9 | 6.9 | 7 |
| 2011 | 35.2 | 42.3 | 6.3 | 32 | 17.2 | 96.1 | 29.6 | 8.3 | 9.5 |
| 2012 | 35.7 | 43.2 | 4.9 | 32.7 | 15.6 | 91.3 | 28.9 | 7.8 | 5.7 |
| 2013 | 36.1 | 44 | 2.2 | 40 | 89.3 | 2.3 | 76.6 | 7.7 | 3.1 |
| 2014 | 39.4 | 45.9 | 15.4 | 43.3 | 37.8 | 98.9 | 24 | 15.7 | 3.4 |
| 2015 | 35.5 | 45.2 | 4.9 | 45.9 | 6.9 | 93.7 | 30.7 | 14.8 | 3.4 |

**Şəkil 7. Bitkiçilik məhsulları ilə təminatda idxaldan asılılıq səviyyəsi(%-lə)**

Bu, o deməkdir ki, həmin məhsul seqmentləri üzrə yerli istehsalçıların mövqeləri ilə müqayisədə xarici ölkələrdən ölkəmizin kənd təsərrüfatı və ərzaq məhsulları bazarına daxil olan istehsalçıların mövqelərinin möhkəmlənməsi müşahidə olunur. Bunun qarşısını almaqdan və ölkənin ərzaq təhlükəsizliyinin təmin olunma səviyyəsini yüksəltməkdən ötrü göstərilən məhsul seqmentləri üzrə idxalı müəyyən qədər əvəzləməyə imkan verə biləcək səmərəli tədbirlər işlənib hazırlanmalı və reallaşdırılmalıdır.

Aqrar sahənin qarşısında kənd təsərrüfatı məhsulları istehsalının artırılması ilə yanaşı, istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi problemləri də durur. Bu isə kənd təsərrüfatında istehsal resurslarınadan; torpaqdan, maddi texniki vasitələrdən daha səmərəli istifadə edilməsini, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalda tətbiq olunmasını, istehsal proseslərinin intensivləşdirilməsini və s. tələb edir.

Aparılan təhlillər göstərir ki, respublikamızda mövcud olan potensial ərzaq təhlükəsizliyinin yerli istehsal hesabına ödənməsi mümkündür. Bu zaman torpaq resurslarından tam və səmərəli istifadə olunması əsas şərtlərdən biridir. Əkin dövriyyəsinə qaytarılmış torpaqlar hesabına heyvandarlığın yem bazasını təşkil

etmək və bununla da respublikamızda rəqabətədavamlı heyvandarlıq məhsullarının istehsalına nail olmaq mümkündür. Hal hazırda yem bazasının yetərli olmaması heyvandarlıq məhsullarının baha başa gəlməsinə səbəb olur ki , bu da idxal olunan məhsullar qarşısında rəqabətə davam gətirə bilmir.

Sonda qeyd etmək istərdim ki, respublikada əhalinin ərzaq təhlükəsizliyinin təminatı üçün dövlət ərzaq ehtiyatlarının növbəti tədqiqatlardasəmərəli təşkili məqsədilə daha çox aspektdən tədqiq olunmasına diqqət yrtiriləcəkdir. Aparılan araşdırmalar nəticəsindərespublikada əhalinin ərzaq təhlükəsizliyinin təminatı məqsədilə aşağıdakı təklif və nəticələr verilmişdir.

## Nəticə və təkliflər

**1.** Aqrar sahədə yerli istehsalın rolunun artırılması, rəqabətədavamlı yerli istehsalın təşkil olunması, ərzaq ehtiyatının artırılması respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasında əsas amillərdən olmalıdır.

**2.**Aqrar sahəsinin strateji istiqamətlərin tələblərinin uyqun zonallıq prinsipləri nəzərə almaqla tədqiqat prioritetləri dəqiqləşdirilməli, əkinçilik sistemində (növbəti əkin toxumçuluq, tingçilik , bitki mühafizəçi, gübrələmə, suvarma və s.) torpaqların məhsuldarlığının artırılmasını, həmçinin sahibkarların gəlirlə işləmələrini təmin edən elmi proqramların hazırlanması tədbirlərin həyata keçirilməsi həll edilməlidir.

**3.** Dövlət ərzaq ehtiyatlarının həcminin və çeşidinin artırılması məqsədilə respublikamızda mövcud olan taxıl anbarlarının və soyuducu kameraların potensialından istifadə edilməlidir.

**4.**Ölkəmizdə idxal və ixrac prosesinə nəzərən ixrac həcmlərinin artım templərinin idxala nisbətən daha yüksək olması üçün yaxın gələcəkdə idxal-ixrac balansında əsaslı müsbət dəyişikliklərin yaranmasına əsas meyar seçilməlidir.

**5.**Kənd təsərrüfatının texniki potensialının bərpası və lazimi səviyyədə formalaşdırılması, eyni zamanda mövcud olan texnikadan səmərəli istifadə edilməsi həlli son dərəcə vacib məsələlərdən olmalıdır.

**6.**Kənd əhalisinin daha doğrusu kənd təsərrüfatı məhsulları istehsalçılarının yeni istehsal sahələrinə cəlb etməklə və cəlb olunan əhalinin mülkiyyətində olan torpaq sahiblərinin mülkiyyət hüququ qorunmaqla onların təsərrüfatlarının bazasında yeni iri təsərrüfatların yaradılmasına dövlət dəstəyinin təmin edilməsi;

**7.** Ölkəmizdə kənd təsərrüfatı mənşəli ərzaq məhsulları istehsalının artması ərzaq təhlükəsizliyinin riskini azaltsada əsas ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsi vacibdir.

**8.**Kənd təsərrüfatı məhsulları istehsalının əsas mənbəyi olan torpaq ehtiyatlarından səmərəli istifadənin, irriqasiya və melorasiya işlərinin sürətləndirilməsinin, o cümlədən dağ ətəyi ərazilərdə müafiq bitkiçiliyin inkişafına cəlb olunmasını təmin etmək lazımdır.

**9.**Ərzaq təhlükəsizliyinin və təbiəti mühafizənin əsası, bir çox qiymətli genlərin daşıyıcıları olan bu genetik müxtəlifliyin lazımi səviyyədə idarə olunması, toplanması, mühafizəsi, kompleks tədqiqi və səmərəli istifadəsi zamanı müasir texnologiyaların tətbiqinin önəmli olması zəruridir.

**10.** Yerli istehsalçıların məhsullarının istehsal yerindən istehlak yerinə daxil olması yolunda sərfiyyat minimum səviyyəyə qədər azaldılmalıdır;

**11.** Bütövlükdə ərzaq bazarının və onun ayrı-ayrı məhsul seqmentlərinin (əsas növ ərzaq məhsulları seqmentlərinin) inkişaf strategiyası işlənib hazırlanmalıdır.

**12.** Müasir innovativ seçmə üsullarının tətbiqinə uyğun olaraq seçilmiş bitki aqrobiomüxtəlifliyinin sort, hibrid, formaların qiymətləndirilməsi və nəticələrin məlumat bazalarında cəmləşdirilərək təhlil edilməsində müasir metodlarından istifadə etməklə yanaşı bu istiqamətdə yeni yanaşma üsulları işlənib hazırlanmalıdır.

**13**. İstehsalın inkişaf etdirilməsi zamanı innovasiya texnologiyalarına düzgün əməl edilməsi istehsal olunan məhsulun qiymətinə müsbər təsir göstərməklə bərabər, onların rəqabət qabiliyyətini də artıra bilər.